# TTKF 3 illik fəaliyyətinin hesabatını verdi

Təhsil Tələbə Krediti Fondunun (TTKF) 3 illik fəaliyyətinin nəticələrinə həsr olunmuş tədbir keçirilib.

Tədbir ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə TTKF-nin 3 illik fəaliyyətindən, əldə olunan nəticələrdən və bu fəaliyyətin tələbələrə verdiyi töhfələrdən bəhs edən film nümayiş olunub.

Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Bəhruz Əzimov təqdimatla çıxış edərək Fondun yaranma məqsədləri, qarşıya qoyulan hədəflər, təhsil tələbə kreditlərinin verilməsi qaydaları, geri ödənişlər və s. haqqında iştirakçılara ətraflı məlumat verib.





Qeyd olunub ki, Azərbaycan Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılmış Təhsil Tələbə Krediti Fondunun əsas məqsədi əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir.

Daha sonra çıxış edən Elm və Təhsil Nazirliyinin şöbə müdiri Səbuhi Rzayev media nümayəndələrinin fondun fəaliyyətinin geniş ictimaiyyətə çatdırılmasındakı rolunu xüsusi vurğulayıb.

O qeyd edib ki, fondun adında kredit sözü olsa da, bu layihə tələbələr üçün bir dəstək mexanizmi kimi nəzərdə tutulur.

Ardınca TTKF-nin təşkil etdiyi "Könüllü" proqramının iştirakçısı olan könüllülər təhsil tələbə kreditləri ilə bağlı apardıqları səmərəli maarifləndirmə işlərinə görə təşəkkürnamələrlə təltif olunublar.

Daha sonra media nümayəndələrinin sualları cavablandırılıb.

Azərbaycan müəllimi.- 2024.- 21 dekabr, №47.- S.6.